# Prezidentin sahibkarlara birbaşa dəstəyi

## *Dövlət başçısı cənab İlham Əliyev biznes mühitinin yaxşılaşdırılması və ölkədə məhsul istehsalını artırmaq üçün yol xəritəsini göstərdi*

**Son bir ayda Prezident İlham Əliyev ölkədə biznes mühitinin yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, o cümlədən xarici investorların Azərbaycana cəlb edilməsi məqsədilə bir neçə mühüm Fərman və Sərəncamlar imzalayıb. Bunların arasında sahibkarlıq sahəsində yoxlamaların nizama salınması, vergi və gömrük rüsumlarının sadələşdirilməsi, lisenziya və icazələrin bir qisminin ləğv edilməsi, bəzilərinin isə asanlaşdırılması da var.**



Dövlət başçısı, həmçinin sahibkarlıq sahəsində yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsi ilə bağlı aidiyyəti qurumların rəhbərlərinə göstəriş verib. Əsas məqsəd sahibkarlığın inkişaf etdirilməsi yolu ilə ölkədə məhsul bolluğunun artmasına şərait yaratmaq, əhalinin ərzaq və kənd təsərrüfatı məhsulları ilə təminatının yerli istehsal hesabına ödənilməsini təmin etmək və idxaldan asılılığı minimum həddə endirməkdir.

Xatırladaq ki, yanvarın 26-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda dövlət başçısı həm iş adamları, həm də yerli icra orqanlarının daha çox diqqət verilməli olduqları sahələri sadalayıb. Cənab Prezident ölkədə istehsal olunan ərzaq məhsulları və bu məhsullar üzrə xaricdən asılılıq dərəcəsi üzrə statistik məlumatları da səsləndirərək bu sahələrə daha çox diqqət verilməli olduğunu bildirib: "Məhsul istehsalı üzrə statistik rəqəmlər ilk növbədə onu göstərir ki, biz son illər ərzində tarixi nailiyyətlərə imza atmışıq. Sovet dövründə biz yağı da, əti də, südü də, pendiri də - hamısını Rusiyadan, Ukraynadan gətirirdik. İndi biz özümüzü böyük dərəcədə təmin edə bilmişik. Ona görə ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi siyasəti uğurla aparılır. Ancaq, eyni zamanda, onu göstərir ki, hələ görüləsi işlər çoxdur. Səsləndirdiyim rəqəmlər iş adamları, dövlət qurumları, yerli icra orqanları üçün əsas sənəd - yol xəritəsi olmalıdır və bunu təzliklə icra etməliyik".

Bəs, ölkədə məhsuldarlığın artırılması üçün cənab Prezidentin göstərdiyi bu yol xəritəsi sahibkarların marağına uyğundur? Yerli icra hakimiyyəti orqanları bölgələrdə fəaliyyət göstərən iş adamlarına məhsul istehsalını artırmaq üçün lazımi şərait yarada biləcəklərmi?

Bəri başdan bildirək ki, elə həmin konfransda maliyyə naziri Samir Şərifov çıxış edərək sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, məhsul bolluğunun yaradılması və rəqabətə davamlı məhsul istehsalına nail olunması məqsədilə Azərbaycanda yeni iqtisadi inkişaf modelinin yaradılacağını söyləyib. Azərbaycanın davamlı iqtisadi inkişafa nail olunduğunu, əhalinin maddi rifah halının ildən-ilə yaxşılaşdırıldığını deyən nazir bildirib ki, dövlət və özəl sektor bu nailiyyətlərin qorunmasına çalışmalıdır: "Biz, cənab Prezidentin qeyd etdiyi kimi, bu nailiyyətləri qorumaqla, yeni inkişaf modeli yaratmalıyıq. Neftdən, neftin qiymətindən asılı olmayan yeni modelin yaradılması bizim qarşımızda duran əsas vəzifədir. Biz çalışmalıyıq ki, bu vəzifənin öhdəsindən layiqincə gələk, əhali üçün yüksək həyat standartlarını qoruyaq. Biz bunun üçün ilk növbədə sahibkarlara yaxşı şərait yaratmalıyıq, dəstək verməliyik, əngəl törətməməliyik. Çünki iqtisadiyyatın hərəkətverici qüvvələrindən biri sahibkarlardır. Onlar yeni müəssisələr yaratmaqla yeni iş yerləri açırlar. Yaxşı biznes mühiti olanda, sahibkar gələcək perspektivləri başa düşəndə, o, investisiya yatıracaq".



### Məhsul bolluğu yaratmağın əsas şərti

Elə ekspertlər də bildirirlər ki, ölkədə məhsul bolluğunun yaradılması, rəqabətə davamlı məhsulların istehsal olunması üçün sahibkarlıq mühitinin yaxşılaşdırılması əsas şərtlərdəndir. Bu mənada ölkə başçısının Sərəncamı ilə vergi, gömrük lisenziyalaşdırma qaydalarının sadələşdirilməsində müvafiq dəyişiklik edilməsi iş adamlarının sərbəst fəaliyyəti üçün yeni imkanlar yaradır. İqtisadi və Sosial İnkişaf Mərkəzinin (İSİM) rəhbəri Vüqar Bayramov hesab edir ki, Prezident İlham Əliyevin sahibkarların fəaliyyətinə müdaxilələrin aradan qaldırılması üçün son aylarda atdığı addımları böhran şəraitində iqtisadi sahədə mümkün risklərin qarşısının alınması baxımından çox vacib hesab edir. Onun fikrincə, ölkə başçısının bununla bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarına ünvanladığı tapşırıqlar da sahibkarlara öz hüquqlarını qorumaq üçün ciddi imkanlar yarada bilər.

Ekspert bildirir ki, Avropada qlobal maliyyə böhranı başladıqdan sonra sahibkarlıq subyektlərinin fəaliyyətinə müdaxilələr artmışdı. Onun sözlərinə görə, iş adamları üçün əlverişli biznes mühiti olmadıqda və ya lüzumsuz yoxlamalar artdıqca sahibkarlıq subyektlərinin öz fəaliyyətlərini genişləndirmək imkanları məhdudlaşır: "Məhz bunu nəzərə alaraq dövlət başçısı biznes mühitinin sağlamlaşdırılması, yoxlamaların nizama salınması istiqamətində ciddi tapşırıqlar verdi. Prezident həm də hansı sahələrə diqqət yetirilməsinin vacib olduğunu konkret misallarla göstərdi və hökumətə tapşırıq verdi ki, məhsul istehsalını artırmaq üçün ilk növbədə kiçik və orta sahibkarlara, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fermerlərə lazımi şərait yaradılsın. Üstəlik sahibkarlara da müraciət edərək üzləşdiyi çətinlikləri gizlətməməyi, problemlərini açıq şəkildə dilə gətirməyi tövsiyə etdi. Bu, ölkə başçısının sahibkarlara birbaşa dəstəyi idi. Bütün bunlar həm də manatın möhkəmlənməsi, idxaldan asılılığın azaldılması üçün çox mühüm amillərdir".

Dolların bahalaşması nəticəsində xaricdən idxal olunan məhsulların maya dəyərinin artmasının da ölkədə bahalıq yaratdığını vurğulayan Vüqar Bayramovun fikrincə, sahibkarlıq mühitinin yaxşılaşdırılması həm də ölkədə yerli məhsulların istehsalının artırılmasını təmin edəcək ki, bu da bahalaşmanın qarşısını almaq üçün əsas vasitələrdən biridir.

### Kiçik sahibkarların biznesini genişləndirmək üçün əla şans

Yeri gəlmişkən, Prezident İlham Əliyevin sahibkarlığın inkişafı ilə bağlı hökumət qarşısında qoyduğu bir çox mühüm məsələlər sürətlə icra olunur. Bunlardan biri də sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılması ilə bağlıdır. Ölkə başçısının 19 oktyabr 2015-ci il tarixli fərmanına əsasən, dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla, sahibkarlıq fəaliyyətinə dair xüsusi razılıq və lisenziyaların verilməsi İqtisadiyyat Nazirliyinə həvalə edilib.

Lisenziyaların verilməsi ilə bağlı nəzərdə tutulan dəyişikliklər və yeniliklər təkcə bununla yekunlaşmır. Belə ki, Fərman imzalandığı gündən etibarən Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi aidiyyəti qurumla ələqələr yaradaraq bu istiqamətdə ilkin müzakirələr aparıb. Bu xidmətlərin ən qısa müddətdə "ASAN xidmət" mərkəzlərində göstərilməsi nəzərdə tutulub. Bununla yanaşı, 31 avqust 2015-ci il tarixində imzalanan Fərmana əsasən sahibkarlıq fəaliyyətilə məşğul olmaq istəyənlər üçün sertifikatların, lisenziya, şəhadətnamələrin elektron qaydada verilməsi ilə bağlı elektron lisenziya portalının yaradılması tapşırığı verilib. Artıq bu istiqamətdə də müvafiq addımlar atılıb, lisenziyaların verilməsi qaydaları əhəmiyyətli şəkildə asanlaşdırılıb.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli də ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımların böyük mahiyyət daşıdığını bildirib. Onun sözlərinə görə, bu sahədə həyata keçirilən dəyişikliklərin əsas mahiyyəti ondan ibarətdir ki, ilk növbədə lisenziyaların sayının azaldılması və həmin sənədlərin verilməsinin asanlaşdırılması nəticə etibarilə yeni iş adamlarının meydana gəlməsinə şərait yaradır: "Bu sahədə atılan addımlar həm də sahibkarları bürokratik əngəllərdən, süründürməçiliklərdən xilas edir. Ona görə də yeni fəaliyyətə başlayacaq iş adamları özlərinin biznes layihələrini həyata keçirmək üçün daha çox maraq göstərəcəklər. Burada korrupsiya, rüşvətxorluq, məmur özbaşınalığı, süründürməçilik kimi halların aradan qaldırılmasının nümunəvi mexanizmi olduğuna görə, kiçik sahibkarlar da öz bizneslərini genişləndirmək haqqında düşünməyə başlayacaq".

### Azərbaycanın beynəlxalq reytinqi artır

Xatırladaq ki, "Moody's" beynəlxalq reytinq agentliyinin illik kredit hesabatında Azərbaycanın biznes mühitinin yaxşılaşması nəticəsində investisiya reytinqinin artması üçün əlverişli mühitin mövcud olduğu bildirilir. Qiymətləndirmələrdə biznesin həm daxili, həm də xarici amillər üzrə mövcud vəziyyəti, yerli və xarici sahibkarların iş fəaliyyəti, rəqabətqabiliyyətliyi, özəl biznesin ixrac imkanları və digər indeksləri təhlil edilib. Bildirilir ki, bu faktorlar Azərbaycanın uzunmüddətli yerli və xarici valyutada reytinqinin "Ba1" investisiya səviyyəsində möhkəmliyini təmin etməklə yanaşı, yeni reytinqin müəyyənləşməsinə də zəmin yaradır.

Agentlik ekspertlərinin rəyinə görə, son illər Azərbaycanda sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırılmasının təkmilləşdirilməsi, sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması üçün addımlar atılıb, bürokratik əngəllərə son qoyulub. Sahibkarlığın inkişafına dövlət qayğısının artırılması məqsədilə xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayı kəskin surətdə azaldılıb, lisenziya müddəti uzadılıb, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarına yol verməyən və bu sahədə şəffaflığı təmin edən qaydalar tətbiq edilib. Biznes mühitinin yaxşılaşması, sahibkarlığa daha əlverişli fəaliyyət meydanının yaradılması, onların müdafiəsi ilə bağlı daha təkmil mexanizmləri özündə əks etdirən qaydaların tətbiq olunması investisiya reytinqinin müəyyən edilməsində mühüm rol oynayıb.

**Elxan Salahov,**
***"İki sahil"***